BEYNƏLXALQ
MÜNASİBƏTLƏRİN
TƏHLİLİ
MƏRKƏZİ

TƏHLİL

# Fransada hökümətə etimadsızlıq votumu ilə əlaqədar dərinləşən siyasi böhranın səbəbləri və mümkün nəticələri


Sultan Zahidov



Mirzə İbrahimov 8, Bakı, AZ1005, Azərbaycan

(+994 12) 596-82-39, (+994 12) 596-82-41

E-mail: www.aircenter.az, info@aircenter.az



DEKABR 2024

**Fransada hökümətə etimadsızlıq votumu ilə əlaqədar dərinləşən siyasi böhranın səbəbləri və mümkün nəticələri**

Fransada son illərdə dərinləşən sosial-iqtisadi və siyasi problemlər bir zamanlar dünyanın aparıcı aktorlarından sayılan dövlətin dekadans dönəminə qərq olduğu narrativini gündəmə gətirmişdir. Emmanuel Makronun prezidentliyi dövründə ölkənin uğursuz xarici və daxili siyasəti mövcud problemlərdən çıxmaq üçün sağlam "Yol xəritəsi" cızmaq əvəzinə, dövlət və cəmiyyətdəki fraqmentasiyasını daha da dərinləşdirmiş, ölkənin iqtisadi göstəricilərinin daha da geriləməsinə vəsilə olmuşdur. Dekabrın 4-də Fransa Milli Assambleyasında hökümətə etimadsızlıq votumunun qəbul edilməsi nəticəsində baş nazirin istefa verməsi isə Fransadakı fraqmentasiyanın yalnız sadə insanlar arasında deyil, həm də hökümət və parlament arasında da baş verdiyini növbəti dəfə nümayiş etdirmiş oldu.

Etimadsızlıq votumuna dekabrın 2-də Fransanın baş naziri Mişel Barnyenin növbəti il üçün sosial təminat büdcəsi ilə bağlı qanun layihəsini Fransa Konstitusiyasının 49.3-cü maddəsini rəhbər tutaraq işlək vəziyyətə salmasından sonra təkan verilmiş oldu. Qeyd edək ki, həmin maddəyə görə baş nazir sosial təminatın maliyyələşdirilməsi haqqında qanun layihəsini Milli Assambleyanın razılığı olmadan da qəbul edə bilər.[1]Bu maddə işə salınan kimi qanun layihəsi ilə bağlı parlament müzakirələri dərhal dayandırılır və məclis üzvlərinin etimadsızlıq votumu təqdim etməsi üçün 24 saatlıq zamanı olur. Hökümətə etimadsızlıqla bağlı qanun layihəsi məclis üzvlərinin 10 faizi tərəfindən imzalanmalı və daha sonra 48 saat ərzində etimadsızlıq votumu ilə bağlı Assambleyada səsvermə həyata keçirilməlidir. Hazırkı qanuna görə azı 289 millət vəkilinin səsi Hökümətə etimadsızlıq votumunun qəbul edilməsi üçün kifayət edir.[2] Milli Assambleyanın təqdim etdiyi qanun layihəsini qəbul etməyəcəyindən əmin olan Barnye 49.3-cü maddəni işə saldı və məhz bu qərar da Barnyenin istefası prosedurunu sürətləndirmiş oldu. Qərardan dərhal sonra Assambleyadakı radikal sol qanadı təmsil edən Yeni Xalq Cəbhəsi (NFP) bloku hökümətə etimadsızlıqla bağlı qanun layihəsi təqdim edəcəyini bəyan etdi. Solçulara əks cəbhədə yer alan və parlamentdə ən çox nümayəndə ilə təmsil olunan qatı sağçı Milli Birlik (RN) partiyası da etimadsızlıq votumunu dəstəkləyəcəyini və bununla bağlı özlərinin də qanun layihəsi təqdim edəcəyini vurğuladı.[3]

Nəticədə dekabrın 4-də Milli Assambleyada həyata keçən səsvermə nəticəsində hökümətə etimadsızlıq votumu qəbul edildi. Assambleyanın 577 millət

---

[1] https://www.conseil-constitutionnel.fr/le-bloc-de-constitutionnalite/texte-integral-de-la-constitution-du-4-octobre-1958-en-vigueur

[2] Bloquet C. Article 49.3 of the French Constitution: bringing parliament to heel, whatever it takes? Institute for Parliamentary Research, 2023 p.2

[3] https://www.lemonde.fr/en/france/article/2024/12/02/french-pm-activates-article-49-3-to-force-his-social-security-budget-bill-without-a-vote_6734923_7.html

vəkilindən 331-i qanun layihəsinin lehinə səs verərək hökuməti istefaya göndərmiş oldu.[4] Beləliklə hələ sentyabrın 5-də Makron tərəfindən baş nazir postuna seçilmiş Mişel Barnye cəmi 3 ay bu vəzifədə qalaraq 5-ci Respublika dönəmində ən qısa müddətli baş nazir kimi tarixə düşmüş oldu. Mişel Barnye eyni zamanda 1962-ci ildən etibarən ilk dəfə etimadsızlıq votumu nəticəsində istefa edən ilk baş nazir kimi tarixə düşdü.[5] Həmin vaxt Əlcəzairin müstəqilliyi məsələsi Fransa daxilində ciddi siyasi böhran yaratmış və nəticədə Milli Assambleyadakı səsvermə ilə Jorj Pompidu höküməti devrilmişdi.[6]

Etimadsızlıq səsverməsindən öncə Mişel Barnye hökümətinin əsas fəaliyyəti 2025-ci il üçün Fransanın büdcəsi layihəsinin hazırlanmasına yönəlmişdi. Sentyabr ayında Makronun istəyi ilə baş nazir postuna gələn Respublikaçı Barnyeyə iqtisadi-maliyyə problemləri get-gedə dərinləşən ölkəni hazırkı vəziyyətdən çıxarmaq və növbəti il üçün büdcə kəsirini azaltmaq vəzifəsi tapşırılmışdı. Oktyabr ayında Barnye sərt iqtisadi islahatları (politique d'austérité) özündə ehtiva edən 2025-ci ilin büdcə layihəsini parlamentə təqdim etdi. Layihə vergilərin artırılması və dövlət xərclərinin azaldılması yolu ilə dövlət büdcəsinə müvafiq olaraq 20 və 40 milyard, ümumilikdə 60 milyard avro əlavə gəlir gətirəcək və beləcə büdcə kəsirini 6.1%-dən 5%-ə endirəcək sərt mexanizmləri nəzərdə tutduğundan parlamentdəki partiyaların əksəriyyəti tərəfindən bəyənilməmişdi.[7] Həmin vaxt Milli Birlik partiyasının lideri Marin Le Penin büdcəni fransızlar üçün zəhərli adlandırmışdı. Müxalifət partiyalarının liderlərinin qanun layihəsini bəyənməməsinin əsas səbəbi sərt iqtisadi-maliyyə islahatları nəticəsində sadə vətəndaşların ciddi ziyan görəcəyi ehtimalı idi. Səhiyyə, təhsil, sosial təminat və digər mühüm istiqamətlərdə dövlətin ayıracağı xərclərin azaldılmasına yönəlik qanun layihəsi ölkədə müəllimlərin, səhiyyə işçilərinin, nəqliyyat və tikinti sektoru və digər sahələrdə çalışan işçilərin də kütləvi narazılığına səbəb oldu.

Dekabrın 6-da ölkədəki vəziyyətlə bağlı Prezident Emmanuel Makronun canlı yayında xalqa on dəqiqəlik müraciəti oldu. Müraciətində Makron 2027-ci ilə qədər hakimiyyətdə qalacağını və ölkəni siyasi böhrandan çıxarmaq üçün ən qısa zamanda yeni baş nazir seçəcəyini qeyd etdi. Çıxışında sağ və sol fraksiyaları anti-Respublika cəbhəsində birləşməkdə günahlandıran Makron müxalifəti sinizm və məsuliyyətsizlikdə günahlandırdı.[8]

Fransa konstitusiyasının 50-ci maddəsinə əsasən hökümətə etimadsızlıq votumundan dərhal sonra baş nazir istefa ərizəsini Prezidentə təqdim etməlidir.

---

[4] https://www.assemblee-nationale.fr/dyn/17/scrutins/519
[5] https://www.bbc.com/news/articles/cdxz934p56qo
[6] https://www.lemonde.fr/en/politics/article/2024/12/04/in-1962-french-lawmakers-toppled-the-government-and-then-it-backfired_6735178_5.html
[7] https://www.lemonde.fr/en/politics/article/2024/10/10/french-pm-barnier-puts-austerity-on-the-menu-in-2025-budget_6728990_5.html
[8] https://www.youtube.com/watch?v=wm7fhYMmqbQ

Dekabrın 5-də Barnye rəsmən istefa etsə də, Makron ona yeni baş nazir seçilənə qədər vəzifəsini müvəqqəti olaraq icra etməsini tapşırdı. Hökumətin süqutu Fransanı dərin siyasi qeyri-müəyyənlik dövrünə sürüklədi. Ölkənin ili sabit hökumətsiz və ya 2025-ci il büdcəsi olmadan başa vuracağı ehtimalı həm xalqı, həm də investorları narahat etməyə başladı. Proqnozlara görə siyasi böhran fonunda ölkədəki iqtisadi geriləmə, artan büdcə kəsiri və dövlətin borclarının 3.2 trilyon avronu ötməsi Fransanın maliyyə bazarlarına da təsirsiz ötüşməyəcəkdir.[9] Bundan sonra yeni hökuməti formalaşdırmaq və 2025-ci ilin büdcəsini təqdim etmək üçün Makron yeni baş nazir seçməlidir, çünki Konstitusiyanın 12-ci maddəsinə görə növbəti parlament seçkiləri 2025-ci ilin iyulundan erkən ola bilməz. Makron istənilən şəxsi baş nazir seçə bilər, lakin həmin şəxs parlamentdə əksəriyyətin dəstəyini qazanmalıdır, əks təqdirdə parlament yeni hökumətə də etimadsızlıq göstərə bilər. Yeni hökumət seçilənə qədər isə hazırkı hökümətin qərarları hüquqi cəhətdən etibarsız (null and void) hesab edilə bilər. Digər tərəfdən bu ilin sonuna qədər yeni büdcənin təqdim edilməsi real görünmədiyinə görə müvəqqəti hökumət Konstitusiyanın 45-ci maddəsini də işə sala bilər ki, bu da 2024-cü ilin büdcə layihəsinin 2025-ci il üçün də qüvvədə qalacağını özündə ehtiva edir.[10]

Siyasi böhran bir çox millət vəkillərinin prezidentlik səlahiyyətləri 2027-ci ildə bitəcək Makronun istefaya getməsi çağırışlarını səsləndirməsini vəsilə oldu. Məsələn, qatı sağçı Milli Birlik partiyasının liderlərindən olan Marin Le Pen Makronun yalnız istefası ilə ölkəni düşdüyü çətin vəziyyətdən çıxara biləcəyini qeyd etdi.[11] Bəzi iddialara görə Le Pen əslində Makronun qısa zamanda istefa etməsinə və yeni prezident seçkilərinin baş verməsinə çalışır. Məhz bu səbəbdən də onun rəhbərlik etdiyi Milli Birlik Partiyası Barnyeya qarşı etimadsızlıq votumunu dəstəkləmiş oldu. Le Penin mənimsəmə işi ilə bağlı məhkəməsi hazırda davam etməkdədir. Bu işlə bağlı hökmün mart ayında veriləcəyi güman olunur və əgər Le Penin təqsirli olması təsdiqlənərsə o zaman onun növbəti Prezident seçkilərində iştirakı da bloklanmış olacaqdır. Məhz bu səbəbdən Le Pen Mart ayına qədər Prezident seçkilərinin keçirilməsində maraqlıdır.[12] Digər tərəfdən ifrat solçu “Məğlubedilməz Fransa” partiyasının liderlərindən Matilda Pano da “Makron getməlidir” deyərək erkən Prezident seçkiləri keçirilməsini tələb etdi.[13] Partiyanın digər nümayəndəsi Manuel Bompar da BFM TV-yə müsahibəsində ölkədə sabitliyin təmini üçün Makronun

[9] https://www.theguardian.com/world/2024/dec/05/what-happens-next-now-france-government-has-fallen-explainer
[10] https://www.lemonde.fr/les-decodeurs/article/2024/12/04/shutdown-budgetaire-affaires-courantes-dissolution-les-questions-que-pose-la-chute-du-gouvernement-barnier_6428259_4355771.html
[11] https://apnews.com/article/france-macron-government-collapse-24681982fc526ffdafd57e53773ef855
[12] https://www.france24.com/en/live-news/20241204-french-government-falls-in-historic-no-confidence-vote
[13] https://www.france24.com/en/europe/20241205-france-s-barnier-to-resign-as-no-confidence-vote-opens-new-political-crisis

mütləq getməli olduğunu vurğulamışdı[14] Artan siyasi böhran fonunda Makrona sadə vətəndaşlar arasında da etimad həndəsi silsilə ilə azalmaqdadır. Fransanın İctimai Rəy İnstitutunun (IFOP) bu ilin noyabr ayında həyata keçirdiyi sorğuya əsasən ölkə əhalisinin yalnız 22%-i Makronun prezidentliyini dəstəkləyir ki, bu da onun hakimiyyətə gəlməsindən etibarən qeydə alınan ən aşağı göstəricidir.[15]

## Hazırkı siyasi böhranın səbəbləri

**Parlamentin fraqmentasiyası -** Fransa Prezidenti Emmanuel Makronun iyundakı Avropa seçkilərindən sonra parlamenti buraxmaq və yeni seçkilər təyin etmək haqqında qərarını ölkədəki siyasi böhranın start nöqtəsi hesab etmək olar. Avropa Parlamentinə seçkilərdə Fransadan qatı sağçıların qələbə qazanması Makronun parlamentdə çoxluq olmayan mərkəzçi Respublika üçün Birlikdə (Ensemble pour la République) fraksiyasına olan etimadı daha da zədələmişdi. Belə olan halda parlamentdə öz fraksiyasının daha da möhkəmlənməsi və qərarları daha asan şəkildə işlək vəziyyətə sala bilmək üçün Makron yenidən parlament seçkilərinin keçirilməsini tələb etməli idi. Digər tərəfdən Makronun bu seçkiləri keçirmək istəməsindəki səbəblərdən biri kimi də əsas rəqibi Marin Le Pen və onun Milli Birlik (Rassemblement national) partiyasını zəiflətmək idi.[16] Əslində bir çox mütəxəssislər də Fransadakı hazırkı siyasi böhranın səbəbini Fransada uzun illər hakimiyyətdə olmuş ənənəvi partiyaların qatı sağ və sol partiyaların mövqeyini zəiflətmək cəhdlərində görürlər.[17] Seçkilər nəticəsində sol qanad koalisiyası 182 səslə birinci, Makronun mərkəzçi Ensemble koalisiyası 168 səslə ikinci, sağ qanad Milli Birlik alyansı isə 143 səslə üçüncü yeri qazandı.[18] Nəticədə heç bir fraksiya çoxluğun təmin olunması üçün gərəkli səsi (289) əldə etmədiyinən sol, mərkəz və sağ partiyalardan ibarət daha da parçalanmış asılı parlament (hung parliament) yaranmış oldu. Beləcə Fransa parlamenti fikirləri bir-birinə zidd olan və heç bir yol xəritəsinə malik olmayan 13 partiyadan ibarət üç qanada parçalanmış bir siyasi instituta çevrilmiş oldu.

**İqtisadi və maliyyə problemləri –** Makronun Fransada Prezident olmasından sonra ölkəni cənginə alan iqtisadi-maliyyə problemləri bu gün daha da böyüməkdədir. Prezidentin iqtisadi sahədə atdığı addımlar ölkənin dövlət borcunu və büdcə kəsirini daha da artırmış və Fransanın əlverişsiz iqtisadi-maliyyə mühitini dərinləşdirməklə investorlar arasında bu ölkəyə olan etimadı zədələmişdir. Son iki ildə enerji daşıyıcıları qiymətlərinin və faiz dərəcələrinin yüksəlməsi, daxili sənayədə

---

[14] https://apnews.com/article/france-macron-government-collapse-24681982fc526ffdafd57e53773ef855
[15] https://www.ifop.com/publication/les-indices-de-popularite-14/
[16] https://edition.cnn.com/2024/06/27/europe/france-parliament-election-explainer-intl-cmd/index.html
[17] https://www.cidob.org/en/publications/why-barniers-government-fell
[18] https://www.lemonde.fr/resultats-elections/

durğunluq və investisiyalarda geriləmə Fransanın iqtisadi inkişafını ciddi dərəcədə axsatmışdır. Makronun xüsusilə, pandemiya və ondan sonrakı dövrdə nizamsız xərcləri 2024-ci ildə ölkənin borcunun 3.2 trilyon avroya yəni ÜDM-un 112%-nə (Avrozonada Yunanıstan və İtaliyadan sonra 3-cü yüksək göstəricidir), büdcə kəsirinin isə ÜDM-un 6.1%-nə çatmasına vəsilə oldu. Bütün bunların fonunda ölkədəki işsizliyin son 15 ilin ən yüksək səviyyəsinə çatması da nəzərə çarpan problemlər sırasındadır.[19] İqtisadi vəziyyət ölkənin siyasi mühitinə də təsirsiz ötüşməmiş və iqtidarla müxalifət arasındakı fikir ayrılığını daha da dərinləşdirmişdir. Barnyeni baş nazir postuna təyin edərkən onun ölkəni mövcud iqtisadi vəziyyətdən çıxaracağına ümid edən Makron, məhz Barnyenin sərt iqtisadi mexanizmlər təklifini dəstəkləyərək hökümətinin istefasını sürətləndirmiş oldu. Nəticədə nə iqtisadi sabitlik yarandı, nə də ölkənin növbəti il üçün büdcəsi təsdiqləndi. Əksinə, dekabrın əvvəllində hökümətin istefasından sonra siyasi böhranın maliyyə sektorunu vuracağından ehtiyatlanan investorlar Fransanı Yunanıstan kimi riskli dövlət hesab etməyə başladılar.[20] Yeni büdcənin təsdiq edilməməsi isə ölkənin kifayət qədər yüksək olan büdcə kəsirini ÜDM-un 6.1%-dən 6.6%-dək qalxmasına səbəb ola bilər.[21] Xatırlatmaq lazımdır ki, Avropa Birliyi standartına görə kəsir ÜDM-un 3%-ni keçməməlidir və Fransada bu rəqəm həddi demək olar ki, 2 dəfə keçdiyinə görə, ölkə Avropa Birliyi tərəfindən vaxtaşırı məzəmmət eşidir. [22] Siyasi böhran Fransadakı maliyyə durumunu proqnozlaşdırıla bilməyən etdiyindən Böyük Üçlüyə daxil olan məşhur kredit reytinqi şirkətləri də Fransanın reytinqini aşağı salmağa başladılar. Hələ may ayında S&P Global Ratings şirkəti Fransanın kredit reytinqini AA-dan AA mənfiyə endirmişdi. Dekabrın 6-da, hökümətın istefasından bir gün sonra Fitch Ratings agentliyi bəyanatında parçalanmış assambleyanın fiskal konsolidasiya ilə bağlı kompromis tapmağı çətinləşdirdiyini və beləcə büdcə kəsirinin Barnyenin istədiyi kimi 5%-lik hədəfə çatması ehtimalının kifayət qədər aşağı olduğunu qeyd etdi. Fitch eyni zamanda büdcə kəsiri nəticəsində Fransanın dövlət borcunun 2028-ci ildə ÜDM-un 118.5%-nə qalxacağını və ölkənin 2025-ci ildəki iqtisadi artımının əvvəlki hesabatda qeyd olunan 1.2% yerinə 0.9 olacağını proqnozlaşdırdı. Qeyd etmək lazımdır ki, oktyabr hesabatında Fitch ölkənin reytinqini AA mənfiyə endirmişdi.[23] Dekabrın 14-də isə Moody’s Ratings ölkənin kredit reytinqini Aa2-dən Aa3-ə endirmiş oldu.[24] Qeyd etmək lazımdır ki, Moody’s şirkətinin Fransanın kredit reytinqini endirməsindən

[19] https://www.nytimes.com/2024/12/04/business/france-economy-government-collapse.html
[20] https://www.politico.eu/article/france-government-collapse-michel-barnier-emmanuel-macron/
[21] https://www.euronews.com/business/2024/12/06/what-next-for-frances-finances-after-the-governments-collapse
[22] https://www.ft.com/content/010b5743-b943-482e-a947-e99a83da42c1
[23] https://www.fitchratings.com/research/sovereigns/french-government-collapse-deepens-political-budgetary-uncertainty-06-12-2024
[24] https://www.lemonde.fr/en/politics/article/2024/12/15/france-s-new-pm-bayrou-faces-budgetary-challenges-as-moody-s-downgrades-credit-rating_6736098_5.html

dərhal sonra ölkənin yeddi böyük bankının səhmləri və CAC 40 indeksi də aşağı düşdü.[25] Məşhur reytinq şirkətlərinin Fransanın reytinqini aşağı endirməsi ölkədəki biznes mühitinin geriləməsinə və yaxın gələcəkdə də ölkənin iqtisadi-maliyyə sistemində ciddi irəliləyişlərin olmayacağına dəlalət edir. Nəticə etibarilə funksional hökümətin olmaması və yeni büdcənin qəbul edilməməsi Fransanın zəif maliyyə-iqtisadi durumunu daha da pisləşdirə və ölkənin uzun müddətli qeyri-sabitlik dönəminə daxil olmasına səbəb olar bilər.

**Fransanın uğursuz xarici siyasəti -** Xarici siyasət daxili siyasətin beynəlxalq arenadakı davamı hesab olunduğu kimi daxili siyasətə və daxildəki proseslərə ciddi təsir göstərir. Fransanın Makron dönəmində həyata keçirdiyi qeyri-praqmatik xarici siyasəti ölkənin beynəlxalq arenadakı çöküşünü şərtləndirən amillərdən oldu. Mali, Niger və Burkina Fasodan sonra Çad və Seneqalın da Fransa ilə hərbi əməkdaşlığa xitam verərək bu ölkənin qoşunlarının çıxarılmasını istəməsi Afrika istiqamətində Makronun siyasi kursunun özünü doğrultmamasının əyani sübutudur.[26] Post-kolonial siyasət və sərt güc mexanizmlərindən istifadə Makron Fransasına qarşı əhali arasında da kin və nifrəti artıraraq Fransanın bu qitədəki təsir dairəsinin xeyli azalması ilə nəticələndi. Digər tərəfdən Makronun Cənubi Qafqaz və Mərkəzi Asiya, Uzaq Şərq və Hind-Çin siyasətinin, Aralıq dənizi hövzəsində möhkəmlənmək arzusunun və Rusiya ilə Ukrayna hərbinə diplomatik müdaxilə cəhdlərinin müsbət nəticələr verməməsi Fransanın beynəlxalq arenadakı statusunun ciddi şəkildə zədələnməsinə və əvvəlki çəkisinin xeyli azalmasına gətirib çıxarmış oldu. Belə olduğu təqdirdə daxildə də Makrona qarşı narazılıqlar daha da alovlanmış və xüsusilə Le Pen və Jan-Lyuk Melanşonun başçılıq etdiyi qat sağ və sol partiyalarının Makronu 2027-ci ilə qədər devirmək cəhdləri daha da sürətlənmişdir. Digər tərəfdən konstitusional məhdudiyyətlər və ölkə daxilində siyasi kompromis mədəniyyətinin zəif olması da hazırkı böhranın dərinləşməsinə təsir göstərən amillər sırasında qeyd oluna bilər.[27]

## Yeni baş nazir Fransua Bayru və hökümətinin qarşısında duran əsas çağırışlar

Dekabrın 13-də Emmanuel Makron mərkəzçi Demokratik Hərəkatın rəbhəri və əvvəllər bir neçə dəfə prezidentliyə namizəd olmuş Fransua Bayrunu Fransanın 2024-cü ildə artıq dördüncü baş naziri postuna seçmiş oldu. Siyasi istablişmentdə Makronun müttəfiqlərindən hesab olunan Bayru 2017-ci il prezidentlik seçkilərində

---

[25] https://www.euronews.com/business/2024/12/18/french-banking-stocks-fall-after-moodys-downgrade-amid-ongoing-political-turmoil
[26] https://www.egmontinstitute.be/a-break-with-the-past-the-end-of-french-military-presence-in-chad-and-senegal/
[27] https://www.chathamhouse.org/2024/12/collapse-barniers-government-shows-bold-choices-are-needed-end-frances-political-deadlock

Makronu dəstəkləmiş və hətta bir müddət Fransa hökümətində ədliyyə naziri olaraq fəaliyyət göstərmişdir. Bayrunun qarşısında ölkəni hazırkı siyasi və iqtisadi böhrandan qurtarmaq kimi kifayət qədər mürəkkəb bir vəzifə durur. Bu məqsədlə Bayrunun həyata keçirməli olduğu ilk iş yeni hökuməti formalaşdırmaqdır ki, bu yolda da onun qarşısında ciddi əngəllər mövcuddur. Əsas maneə isə bölünmüş parlamentdə əksəriyyətin dəstəyini qazanmaqdan ibarətdir, çünki əgər bu baş verməsə Bayru hökümətinə də əvvəlki hökümət kimi etimadsızlıq göstərilə bilər. Artıq indidən Sosialist partiyasının lideri Olivye For Bayrunun əvvəlki hökümətin siyasətini davam etdirəcəyini əsas gətirərək onun baş nazirliyinə qarşı çıxdığını bəyan etmiş oldu. Bundan əlavə mühafizəkar sağçılar arasında hələ də müəyyən nüfuza malik olan Nikola Sarkozinin Bayruya qarşı çıxması yeni baş nazirin işinin heç də asan olmayacağı görüntüsünü yaratmaqdadır.[28]Bayrunun qarşısında duran əsas çağırışlardan biri də ölkənin hazırkı maliyyə-iqtisadi vəziyyətinin bərpası üçün Fransanın büdcə kəsiri probleminin həllidir ki, bunun üçün də ilk vəzifə olaraq yeni büdcə qanunu hazırlanmalı və qəbul edilməlidir. Artıq 16 dekabrda Milli Assambleya xüsusi büdcə qanunvericiliyi layihəsini qəbul etdi və 18 dekabrda Fransa senatının da təsdiqindən sonra qanunvericilik layihəsi işlək vəziyyətə salındı. Bu o deməkdir ki, 2025-ci il Fransasında yeni büdcə qəbul edilənə qədər 2024-cü ilin dövlət xərcləri və vergiləri tətbiq edilmiş olacaqdır.[29]

Vəzifəsinə başlayan kimi digər partiyaların liderləri ilə görüşlər həyata keçirən Bayrunun niyyəti qısa zamanda yeni höküməti formalaşdırmaqdı. İndiki mərhələdə nə sağçılar, nə də solçuların onun təqdim edəcəyi büdcə layihəsini qəbul edəcəyi real görsənmir, lakin Bayru üçün hazırda mühüm olan məsələ Barnye höküməti kimi etimadsızlıq votumu ilə üzləşməməkdir.[30] Məhz bu səbəbdən o, digər partiya nümayəndələri ilə danışıqlar apararaq öz proqramının və yeni hökümətə seçəcəyi namizədlərin partiyalar tərəfindən dəstəklənəcəyinə ümid edirdi. İlk öncə qatı sağçılar Jordan Bardella və Marin Le Penlə görüşən Bayru, daha sonra mərkəzçi Renessans partiyasının lideri və keçmiş baş nazir olan Qabriel Attal və solçu lider Olivye Foru qəbul etdi. Melanşonun rəhbərlik etdiyi qatı sağçı Məğlubedilməz Fransa partiyası isə Bayrunun danışıqlar dəvətini ümumiyyətlə rədd etmiş oldu ki, bu da partiyanın Bayruya etimad etmədiyinin əyani göstəricisidir.[31] Bu baxımdan Bayrunun iki yolu var: ya Marin Le Pen və qatı sağçılardan dəstək almaq, ya da sol qanadı bölərək nisbətən mülayim mövqe sərgiləyən sosialistlərlə əməkdaşlıq etmək. Baş nazir vəzifəsində ilk çıxışlarından birində millət vəkilləri arasında heç bir fərq

---

[28] https://www.france24.com/en/europe/20241213-who-is-fran%C3%A7ois-bayrou-the-centrist-ally-that-macron-named-prime-minister

[29] https://www.france24.com/en/europe/20241216-french-parliament-avoids-government-shutdown-by-passing-special-budget-rollover-bill

[30] https://www.politico.eu/article/france-new-pm-francois-bayrou-faces-three-key-hurdles-to-deliver-a-budget/

[31] https://www.euronews.com/2024/12/16/frances-new-pm-francois-bayrou-meets-party-leaders-to-form-government

qoymayacağını qeyd edən Bayru yanvarın 14-də parlamentdə öz siyasi proqramını təqdim edəcəyini bəyan etdi.[32] Əslində həmin tarix Bayru hökuməti üçün həlledici məqam hesab oluna bilər, çünki proqram parlamentdə əksəriyyətin dəstəyini almasa ona qarşı da etimadsızlıq votumu tətbiq edilə bilər. Bu da Fransada son bir ildə 4-cü dəfə baş nazirin istefasını və ikinci dəfə hökumətə qarşı etimadsızlıq votumunun baş verməsi deməkdir ki, belə olduğu təqdirdə Makronun prezidentlik kürsüsü daha da zədələnmiş olacaqdır. Artıq indən müxalif partiya liderlərinin Bayru hökumətinə və Makrona qarşı narazılıqları səslənməkdədir. Məsələn, dekabrın 17-də Milli Birlik partiyasının lideri Le Pen Fransanın məşhur Le Parisien qazetinə müsahibəsində "Makron bitib və ya demək olar ki" (Emmanuel Macron, c'est fini ou presque) ifadəsini işlədərək Fransanın erkən Prezident seçkilərinə hazırlaşmalı olduğuna ehyam atdı. Le Pen eyni zamanda Bayrunun baş nazir postuna gətirilməsinin Makronun mərkəzçi Ensemble koalisiyası daxilində də narazılıqlar yaratdığını qeyd edərək, Makronun beynəlxalq arenada da çəkisinin qalmadığını və Bayrunun da əslində özü özünü bu posta təyin etdiyini vurğuladı.[33] Bir tərəfdən Makronun mərkəzçi koalisiyası daxilindəki narazılıqlar, digər tərəfdən də Makronla Bayru arasında hələ ilk vaxtdan gərgin anların yaşanması ölkədəki siyasi vəziyyətlə əlaqəli qeyri-müəyyənlik ab-havasını daha da genişləndirdi.[34] Matinyondakı ilk günlərindən etibarən Bayrunun Po şəhərinin icra başçısı vəzifəsində qalmasına israr etməsi və qasırğadan əziyyət çəkən Fransanın dənizaşırı Mayotta ərazisindəki böhranı idarə edə bilməməsi Makronla Bayru arasında gərginliyin artmasına səbəb oldu.[35]

Dekabrın 23-də baş nazir Fransua Bayru yeni hökuməti elan etdi. Daha çox mərkəzçi və mühafizəkar sağ qanadı təmsil edən hökumət öncəki hökumətin nazirləri ilə bərabər bəzi yeni nümayəndələrdən təşkil olundu. Əvvəllər daxili işlər naziri olmuş Jerald Darmanen və keçmiş baş nazir Elizabet Born yeni hökumətdə müvafiq olaraq Ədliyyə və Təhsil naziri postlarına yiyələndilər. Qeyd edək ki, bu şəxslərin hər ikisi Makronun Renessans partiyasını təmsil edir. Yeni hökumətdə mərkəzçi fraksiyanı həm də istefaya göndərilən Barnye hökumətində müvafiq olaraq Xarici İşlər və Müdafiə Nazirləri olmuş Jan Noel-Barro və Sebastyen Lekornyu təmsil edəcəklər. Əvvəlki hökumətdən qalan digər sima isə mühafizəkar sağı təmsil edən və sərt immiqrasiya siyasətini dəstəkləyən Daxili İşlər Naziri Bruno Retayo oldu.[36] Qeyd

[32] https://www.francetvinfo.fr/politique/gouvernement-de-francois-bayrou/direct-attendu-a-l-assemblee-nationale-francois-bayrou-poursuit-ses-consultations-et-espere-former-son-gouvernement-cette-semaine_6960245.html
[33] https://www.lefigaro.fr/politique/en-direct-remaniement-bayrou-promet-d-aller-a-mayotte-une-fois-son-gouvernement-forme-20241218#18-12-2024-07-05-19
[34] https://www.leparisien.fr/politique/personne-na-interet-a-entretenir-la-guerre-entre-macron-et-bayrou-des-premieres-tensions-17-12-2024-XMDPOISPO5EQLHCCLJFUTHK2XI.php
[35] https://www.politico.eu/article/new-french-prime-minister-francois-bayrou-centrist-jobs-mayor-indian-ocean-mayotte/
[36] https://www.theguardian.com/world/2024/dec/23/french-pm-names-new-government-hoping-to-avoid-another-no-confidence-vote

etmək gərəkdir ki, hazırkı hökümət istefaya məcbur edilmiş Bayru hökümətindən bir o qədər fərqlənmir və bəzi siyasi nümayəndələrin fikrinə görə qatı sağçıların təsiri ilə formalaşmışdır. Yeni hökümətin tərkibinə nəzər salsaq Bayrunun ilk missiyasının, yəni parlamentdəki dominant partiyaların təmsil olunduğu hökümətin formalaşdırılması vəzifəsinin uğursuzluğa düçar olduğunu qeyd edə bilərik. Yeni hökümətdə parlamentdə çoxluq olan sol qanad – Yeni Xalq Cəbhəsi alyansından heç kəsin olmaması Barnye kimi Bayrunun da azlığın hökümətinə rəhbərlik edəcəyinin göstəricisidir.[37] Fevralın ortasına qədər yeni büdcə layihəsini təqdim edəcəyini bəyan edən Bayru indiki halda layihənin qəbul olunması üçün əvvəlki baş nazir kimi ifrat sağ qanadın dəstəyinə arxalanmalı olacaqdır ki, Le Penin Milli Birlik partiyasının Barnyedə olduğu kimi Bayrunu da yarı yolda qoyması ehtimalı kifayət qədər yüksəkdir. Əgər yeni hökümət qısa zamanda qatı sağı öz tərəfinə çəkə bilməsə o zaman Baryne hököməti kimi Milli Assambleya tərəfindən etimadsızlıq votumuna məruz qala bilər. Qatı sol qanadı təmsil edən Melanşonun 14 yanvarda – yeni hökümətin siyasi proqramını parlamentə elan etdiyi zaman etimadsızlıqla bağlı layihəni təqdim edəcəyini bildirməsi və Sosialist Partiyasının rəhbəri Olivye Forun bu fikri dəstəkləməsi yeni hökümətin də parlamentin etimadsızlığı ilə üzləşəcəyi ehtimalını artırmış olur.[38]

### Siyasi böhranın Fransa və Avropa kontekstində mümkün nəticələri

Fransada hazırkı siyasi böhran ölkə daxilindəki proseslərə mənfi təsir etməklə bərabər iqtisadi kontekstdə Avropa Birliyinin inkişaf siyasətinə və geosiyasi kontekstə Avropanın Rusiyaya qarşı vahid cəbhədə birləşməsinə maneçilik törədə bilmək potensialına malikdir.

Böhranın mümkün ölkədaxili təsirlərini sadalasaq ilk növbədə Fransadakı siyasi fraqmentasiyanın daha da dərinləşəcəyini proqnozlaşdırmaq mümkündür. Ölkədaxili problemlər, o cümlədən yaşayış xərclərinin sürətlə artması, dövlət xidmətlərinin iflası, immiqrasiya problemləri, get-gedə artan ksenofobiya və islamafobiya meylləri siyasi istablişmentin və parlamentin haçalanmasından əlavə cəmiyyətin fraqmentasiyasını da sürətləndirən faktordur.[39] Digər tərəfdən yeni büdcə layihəsinin qəbul edilməməsi səbəbindən mövcud siyasi böhranın dərinləşməsi fonunda ölkəni bürüyən iqtisadi-maliyyə problemlərinin daha da artacağını güman etmək olar. Artıq bir çox beynəlxalq dərəcəli reytinq şirkətləri və mütəxəssislər Fransanın növbəti ildəki büdcə kəsirinin daha da artacağını, hətta ÜDM-un 6.6%-nə

[37] https://www.politico.eu/article/france-new-government-prime-minister-francois-bayrou/
[38] https://www.lemonde.fr/en/politics/article/2024/12/23/french-pm-bayrou-appoints-new-government-former-prime-minister-elisabeth-borne-named-education-minister_6736396_5.html
[39] https://www.cfr.org/expert-brief/what-does-frances-political-instability-mean-europe

çatacağını proqnozlaşdırırlar.[40] Nəhayət, yeni hökümətin də yanvar ayında parlament tərəfindən etimadsızlıq votumu ilə üzləşməsi nəticəsində daxili siyasi böhranın Prezidentin hakimiyyətdən getməsi dərəcəsinə çatması da mümkün hesab edilən ssenaridir. Onsuz da xalq arasındakı dəstəyi günü-gündən azalan Makrona qarşı müxalif partiyalar tərəfindən də vahid cəbhə formalaşması onun hakimiyyətinə ciddi zərbələr vurmaqdadır. Ölkəni bürüyən iqtisadi problemlər, Avropa Birliyi timsalında xaricdən təzyiqlər fonunda Makronun öz fraksiyası daxilində də ona qarşı narazılıqların artması bir çoxlarına görə Fransa Prezidentinin istefasını sürətləndirə və beləcə erkən Prezident seçkilərinin keçirilməsini şərtləndirə bilər. Le Penin erkən Prezident seçkilərinə hazırlıq barədə Le Parisienə müsahibəsi bəlkə də bu ssenarinin baş tutacağına işarədir, baxmayaraq ki, dekabrın 6-da xalqa müraciətində o, prezidentlik kürsüsündən getməyəcəyini bəyan etmişdi. Digər tərəfdən Fransa Konstitusiyasının 68-ci maddəsinə əsasən Prezidentə qarşı etimadsızlıq (destitution) prosedurunun tətbiq olunması da nəzəri olaraq mümkündür.[41] Həmin maddəyə görə Prezident öz səlahiyyətlərini lazımınca yerinə yetirə bilməzsə və vəzifəsindən sui-istifadə etsə parlamentin 2/3-nin səsi ilə ona qarşı etimadsızlıq qərarı qəbul edilə bilər, lakin bu kifayət qədər uzun bir prosedur olduğundan və 5-ci Respublika tarixində hələ heç vaxt tətbiq olunmadığından indiki halda baş verməsi bir o qədər real görsənmir. Hazırkı şəraitdə Makronun digər seçimi isə Konstitusiyanın 16-cı maddəsini işə salmaqdır ki, bu maddə Prezidentə ölkənin funksionallığına ciddi təhdidlər olduğu təqdirdə xüsusi səlahiyyətlər, o cümlədən parlamentin razılığı olmadan büdcəni qəbul etmək səlahiyyəti verir. Lakin bu maddənin tətbiqi əksər hüquq mütəxəssislərinə görə ölkədəki böhranı daha dərinləşdirməklə bərabər, ölkə daxilində xaos və anarxiyanın geniş vüsət almasına təkan verə bilər.[42]

Fransada baş verən proseslər Avropa Birliyinə də mənfi təsir göstərməkdədir. Ölkədəki büdcə kəsirinin Avropa Birliyinin təyin etdiyi həddən iki dəfə çox olması Fransa ilə təşkilat arasındakı münasibətlərdə də müəyyən gərginlik yaratmışdır. Əgər qısa zamanda Fransa bu kəsiri aradan qaldırmasa Avropa Birliyinin cəza mexanizmləri ilə üzləşəcəyi ehtimalı da mövcuddur.[43] Digər tərəfdən ölkədəki bank səhmləri qiymətlərinin aşağı düşməsi zəncirvari reaksiya şəklində bütün Avropa Birliynin bank sisteminə və maliyyə infrastrukturlarına mənfi təsir göstərmək potensialına malikdir.

Geosiyasi kontekstdən yanaşsaq, Avropanın Rusiya-Ukrayna müharibəsi fonunda Rusiyaya qarşı aldığı cəbhə Fransadakı siyasi böhranla daha da zəifləyəcəkdir. Digər tərəfdən Avropa və Ukraynaya dəstək mövzusunda fərqli

---

[40] https://www.euronews.com/business/2024/12/06/what-next-for-frances-finances-after-the-governments-collapse
[41] https://www.conseil-constitutionnel.fr/sites/default/files/as/root/bank_mm/anglais/constiution_anglais_oct2009.pdf
[42] https://www.lemonde.fr/les-decodeurs/article/2024/12/04/shutdown-budgetaire-affaires-courantes-dissolution-les-questions-que-pose-la-chute-du-gouvernement-barnier_6428259_4355771.html
[43] https://www.lemonde.fr/en/economy/article/2024/06/19/european-commission-reprimands-france-and-six-countries-for-breaking-budget-rules_6675175_19.html

yanaşmaya malik Donald Trampın ABŞ-ın növbəti prezidenti seçilməsi Avropanın əvvəlkindən daha çox vahid mövqedən və birlik halında çıxış etməsi zərurətini yaratsa da, Fransa böhranı onsuz da liderlik çatışmamazlığından əziyyət çəkən qitəni Rusiya qarşısında daha da çətin vəziyyətə salmış olacaqdır. Hər nə qədər Paris Notr-Dam kilsəsinin açılışında Tramp və Zelenski ilə üçtərəfli görüşü vasitəsilə Makron ABŞ-Fransa-Ukrayna oxunda müsbət ab-havanın hökm sürdüyünə işarə etmək istəsə də, reallıqlar hələ ki, bunun əksini göstərir.[44] Məsələyə Almaniyadakı siyasi prosesləri də əlavə etsək Avropanın Ukraynaya yardımında büdrəmələr olacağını da proqnozlaşdırmaq mümkündür. Qeyd etmək lazımdır ki, etimad səsverməsi nəticəsində kansler Olaf Şoltsun məğlub olması ilə fevral ayında ölkədə erkən seçkilərin təyin olunması Almaniyada da mövcud siyasi böhranı daha da dərinləşdirmiş oldu.[45]

## Nəticə

Nəticə olaraq, Fransanın hazırda ciddi sınaq qarşısında olduğunu qeyd edə bilərik. Ölkə son illərdə daha da genişlənən daxili fraqmentasiya, sosial-iqtisadi problemlər, xarici siyasətdə uğursuz addımlar, artan büdcə kəsiri və dövlət borcuna əlavə olaraq iyun ayından etibarən siyasi böhran mərhələsinə qədəm qoymuşdur. Dekabr ayında parlamentin hökümətə qarşı etimadsızlıq göstərməsi ilə hökümətin istefa etməsi bu böhranı da dərinləşdirmişdir. Ölkənin üzləşdiyi hazırkı siyasi böhranın əsas səbəbləri sırasında parlamentin heç birinin çoxluq təşkil etmədiyi üç fərqli qanada parçalanmasını, iqtisadi problemləri və Makronun yarıtmaz siyasətini qeyd etmək mümkündür. Hazırkı mərhələdə yeni seçilmiş hökümətin qarşısında bir sıra mühüm çağırışlar dayanmaqdadır ki, bu çağırışlardan ən vacibi parlamentin dəstəyini qazanmaq və 2025-ci ilin büdcəsinin qəbul edilməsinə nail olmaqdır. Əgər bu baş verməzsə o zaman siyasi proseslər yeni hökümətin buraxılmasından tutmuş Makronun istefasına və erkən Prezident seçkilərinin keçirilməsinə qədər inkişaf edə bilər. Hazırkı böhran Avropa Birliyi iqtisadiyyatına mənfi təsir göstərməklə bərabər, geosiyasi kontekstdə Ukrayna məsələsində Rusiya qarşı vahid Avropa cəbhəsinin möhkəmlənməsi strategiyasının reallaşmasını yubatmış olacaqdır. Hərçənd ki, transatlantik əlaqələrin əhəmiyyətinə skeptik yanaşan Donald Trampın dönəmində ABŞ-ın Avropaya və Ukraynaya olan dəstəyi minimuma endirməsi ehtimalı, bu gün Avropanın birlik halında çıxış etməsi zərurətini daha da artırmaqdadır.

**Müəllif: Sultan Zahidov, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin aparıcı məsləhətçisi**

[44] https://www.brookings.edu/articles/what-is-going-on-in-france/
[45] https://www.bbc.com/news/articles/ckg36pp6dpyo